# Yaradıcılığı

XX əsrdə millətimizin istiqlal - özünüdərk mücadiləsi Azərbaycan poeziyasının imkanlarını və gücünü də ortaya qoydu. Sabir Rüstəmxanlı bu ağır, sevda Yolunun yolçusu oldu.

Erkən yaşlarından məşğul olduğu ədəbi fəaliyyət 1967-ci ildən onun əsas peşəsinə çevrilmişdir. 1967–1978-ci illər ərzində "Ədəbiyyat və incəsənət" qəzetində xüsusi müxbir və şöbə müdiri, 1978–1989-cu illər arasında isə "Yazıçı" nəşriyyatının baş redaktoru olmuş, yüzlərlə elmi, ədəbi-tənqidi, publisistik yazı çap etdirmişdir. İlk kitabı 1970-ci ildə nəşr edilmişdir. O vaxtdan bəri Azərbaycanda, Türkiyədə, Rusiyada, İsveçdə 30-dan artıq şeir, nəsr, publisistika kitabları nəşr edilmişdir. Kitabları Azərbaycanın yüksək ədəbi ödüllərinə layiq görülmüş, onun adını bütün türk dünyasında və əski Sovetlər Birliyində tanıtdırmışdır.

"Ömür kitabı" adlı əsəri Azərbaycanda xalqın milli və yurdsevərlik duyğularının oyanmasında ciddi rol oynamış və 1988-ci il milli azadlıq hərəkatının mənəvi təməllərindən biri olmuşdur. "Tanımaq istəsən", "Xəbər gözləyirəm", “Sevdiyim, sevincim”, "Gəncə qapısı", "Sağ ol, ana dilim!", "Qan yaddaşı", Ömür kitabı”, "Zaman məndən keçir" və sair kimi şer kitablarının, "Bütövlük", "Didərginlər", "Cavad xan", "Orxonla görüş", “Qarabağa dönüş” poemalarının, "Bu sənin xalqındır" publisistik yazılarından ibarət əsərin, "Atamın ruhu", "Xətai yurdu", "Göy Tanrı", "Ölüm Zirvəsi (Cavad xan)", "Difai fədailəri", "Sunami”, “Əbədi sevda”, “ Dərdə əyilmə”, Şair və Şər”, “Akademikin son əsəri”,  “Astar”  romanlarının müəllifidir. Əsərləri bir çox dünya xalqlarının dillərinə tərcümə olunub.

Vətən savaşının ilk poemasını yazmış Xalq şairi Sabir Rüstəmxanlı Azərbaycan ədəbiyyatında milli ruhun və yüksək vətəndaşlıq mövqeyinin böyük ədəbiyyatını yaratmış görkəmli sənətkarlardan biri kimi qəbul olunur. O, qan yaddaşının poeziyasını yaratmaqla, soykökə və qəhrəmanlıq tariximizə işıq salmaqla yeni tarixi epoxanın vətənpərvərlik-vətəndaşlıq ideallarına dəstək vermək missiyasını şərəflə və məsuliyyətlə yerinə yetirməyi özü üçün müqəddəs borc, ali vəzifə hesab edən şair-vətəndaşdır. Sabir Rüstəmxanlının yaradıcılığındakı Gəncə qapısı – Cavadxan motivi Xətai yurdu – Meydan hərəkatı notları milli-azadlıq hərəkatı mövzusunda meydana qoyulmuş ən yaxşı əsərlər sırasındadır.

Sabir Rüstəmxanlının qələminə məxsus əsərlərdə təbliğ etdiyi din, tarix, müasirlik, yeniləşmə, proqress, tolerantlıq, humanizm, əxlaqi-mənəvi və s. məsələlər mühüm yer tutaraq, milli şüurun formalaşmasını təmin edir. Sabir Rüstəmxanlı milli şüurun formalaşdırılması yolunda əvəzsiz xidmətləri olan Ə. Hüseynzadə, Ə. Ağaoğlu, M.Ə. Rəsulzadə kimi milli ideoloqların yolunu davam etdirməyə qadir ola bildi. Milli ədəbiyyatın inkişafı milli ideologiyanın formalaşmasına təsirsiz ötüşmür. Hər hansı bir millətin həmrəyliyi, milli birliyinin tərəqqisi, xalqın vahidliyi vahid

baxışlar sisteminə əsaslanan ideologiyaya əsaslanır. Milli ədəbiyyat millətin birliyini, maraqlarının prioritetlərini ehtiva edən ideya və dəyərləri təbliğ etmə baxımdan aktuallıq kəsb edir. Sabir Rüstəmxanlı qələmə aldığı əsərlərdə yalnız siyasi amilləri qabartmamış, mənəvi bağlılığı, etnik steorotipləri və mifogemləri özündə birləşdirən tarixi yaddaş amilinə nəzər salmışdır. Bu əsərlərdə insanın milli, etnik və dini mənsubiyyəti təbliğ edilmişdir. Sabir Rüstəmxanlının əsərləri dövrün ictimaisiyasi hadisələrini və meydana çıxardığı idealları təsvir və ya tərənnüm edərək, ədəbi prosesdən kənarda qalmamışdır. Sabir Rüstəmxanlının əsərləri ictimai fikri ümummilli ideallar uğrunda mübarizəyə səsləyişi ilə fərqlənmişdir. Müəllifin qələmə aldığı əsərlərin növ və janrları, problematikası, yaratdığı obrazlar qalereyası, istifadə etdiyi bədii ifadə və təsvir vasitələri və s. ədəbiyyatın yeniləşməsinə, tərəqqisinə və zənginliyinə təkan vermişdir.

Sabir Rüstəmxanlı Azərbaycan ədəbiyyatının janr sisteminin inkişafına bir ədib kimi maraq göstərmiş və yeni janr eksperimentlərini həyata keçirməsinə nail ola bilmişdir. Məsələn, müəllifin qələmə aldığı “Göy Tanrı”, “Şair və şər”, “Akademikin son əsəri”, “Sunami” və s. romanları janr qarışıqlığını əks etdirən kamil nəsr nümunələridir. Janr sisteminin inkişafı baxımından, ədibin nəşr edilmiş romanları, hekayələri, povestləri, sənədli və cizgi filmlərinin ssenariləri, pyesləri, publisist yazıları maraq kəsb edir. Publisistikasında bədii və sənədli janrların qarışıqlığı geniş yayılmışdır. Məsələn, “Xətai yurdu” əsərinin janr strukturu bu baxımdan maraq kəsb edir: bədii və publisistik janrın qarışığı nəticəsində formalaşmış roman-oçerk nümunəsi. Sabir Rüstəmxanlı qələmə aldığı əsərləriylə Azərbaycan ədəbiyyatının zəngin olmasını təsdiqləməyə nail oldu. Sabir Rüstəmxanlının qələmə aldığı əsərlərin janrlarının müxtəlif və mövzu baxımdan rəngarəng, dolğun olması ədibin söz xiridarı olmasını təsdiq edir.[1]

[1] **Şərifova, Salidə Şəmməd qızı.** Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi [Mətn] /Salidə Şərifova. – Bakı, “Elm və Təhsil”, 2021. – S.110-111..